"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 94(479.24)**

**İLHAMİ ƏLİYEV**
AMEA Naxçıvan Bölməsi
ilhamialiyev@yahoo.com.tr

# NADİRİN AZƏRBAYCAN TORPAQLARINI RUSİYA VƏ OSMANLI İŞĞALINDAN AZAD ETMƏSİ VƏ NAXÇIVANDA OSMANLI İDARƏÇİLİYİNƏ SON QOYULMASI

*Məqalədə XVIII yüzilliyin 20-30-cu illərində Rusiya və Osmanlı dövlətləri tərəfindən işğal edilmiş Səfəvi torpaqlarının azad edilməsində Nadir xanın əvəzsiz xidmətlərindən bəhs edilir. Qeyd edilir ki, səfəvilərin hakimiyyətinin son dövründə bu dövlətin hərbi-siyası və iqtisadi baxımdan zəifləməsi nəticəsində əksər əraziləri, o cümlədən də Azərbaycan torpaqları qonşu Osmanlı və Rusiya hərbi qüvvələri tərəfindən tutulmuşdu. Bu zaman hakimiyyətdə olmuş Şah II Təhmasib (1722-1732) bu torpaqları azad edə bilməyəcəyini görüb Nadirin yüksək hərbi səriştəsindən istifadə edərək əvvəlki sərhədləri bərpa etmək və öz hakimiyyətini möhkəmləndirmək istəmişdir. Lakin bu plan onun gözlədiyi kimi deyil, Nadir xanın xeyrinə həll edilmişdir.*

*Nəticədə nəinki Rusiya və Osmanlı dövlətləri, həmçinin əfqanlar, türkmənlər və s. qüvvələr tərəfindən işğal edilmiş bütün Səfəvi torpaqları, o cümlədən Qafqazdakı torpaqlar XVIII əsrin 30-cu illərinin ortalarına doğru Nadir şah tərəfindən azad edilmişdir.*

**Açar sözlər:** *Osmanlı, Naxçıvan, Qafqaz, Səfəvilər dövləti, işğal, siyasi vəziyyət*

1722-ci ildə II Təhmasib (1722-1732) özünü Səfəvi şahı elan etdikdən sonra on il müddətində hakimiyyətdə qaldı. Bu illər Səfəvilər dövlətinin tarixində çox mürəkkəb və ziddiyyətli bir dövr olmuşdur. Səfəvilərin sahib olduğu torpaqların əksər hissəsi, o cümlədən Azərbaycan da Osmanlı və Rusiya dövlətləri tərəfindən onun əlindən alınmışdı. Şahın formal hakimiyyəti az bir qisim Səfəvi torpaqlarında qalmaqda idi. Hakimiyyətin formal olmasının səbəbi bu zaman Səfəvi dövlətini Şah II Təhmasibin adından Nadir xanın idarə etməsi idi.

Hərbi-siyasi baxımdan çox gərgin bir vəziyyətin yaşandığı Səfəvilər dövlətini idarə etmək və işğal edilmiş torpaqları geri qaytarmaq II Təhmasib üçün çətin idi. Bu işin öhdəsindən türk Əfşar boyunun Qırxlı oymağından olan Nadir xan gələ bilərdi. Nadir yəni, Nadirqulu İmamqulu oğlu Əfşar 1688-ci ildə Xorasanın Dərəgəz vilayətinin Dəstgird kəndində dünyaya gəlmişdir. Onun gənclik illəri Səfəvilər dövlətinin süquta doğru getdiyi bir zamana təsadüf etdiyindən yaşadığı bölgədə də ictimai-siyasi vəziyyət sabit deyildi. Hakimiyyətin zəiflədiyi bu dönəmdə ölkə ərazisinə tez-tez hücumlar olurdu.

**Məqalə tarixçəsi:**
Göndərilib: 19.02.2019, qəbul edilib: 12.03.2019

Nadirin yaşadığı bölgəyə hələ əvvəlki illərdən özbək, türkmən, əfqan və s. dəstələrinin yürüşləri baş verirdi. Növbəti hücumlardan birində, 1704-cü ildə Nadir özbəklər tərəfindən əsir götürülmüşdu. 4 il əsirlikdə qaldıqdan sonra oradan qaça bilmiş, 1710-cu ildə Əbivərd hakimi Babaəli bəyin müdafiə dəstəsinə daxil olmuşdu. Bu dəstənin tərkibində 1719-cu ildə Əbivərdə hücum edən özbək və türkmən dəstələrini məğlub edib onları oradan çıxarmış, 1720-ci ildə möhkəm Kəlat qalasını tutaraq özünə qərargah etmişdi [8, s. 4; 7, s. 21].

Göründüyü kimi, Nadir mübarizəyə hələ gənc yaşlarından, doğulduğu vilayətin müdafiəsindən başlamışdı. Əvvəlcə özbək və türkmən dəstələrinin bölgəyə işğalçı yürüşlərinin qarşısını almaqda uğur əldə etmiş, sonra əfqan hücumlarına qarşı mübarizədə igidliklər göstərmişdi. Hərbi-siyasi dağınıqlığın olduğu ağır dönəmdə, paytaxt İsfahan şəhərini qorumağın çətin olduğu bir zamanda öz doğulduğu bölgəni qarətçi yürüşlərdən qoruması Nadirin gələcəkdə dövlətçilik sahəsində böyük işlər görəcəyindən xəbər verirdi. Xorasanda göstərdiyi igidliklər tezliklə onun Səfəvi şahı II Təhmasib tərəfindən tanınmasına gətirib çıxardı. 1726-cı ilin sentyabrında Xəbuşanda Məşhəd şəhəri uğrunda əfqanlara qarşı başlayacaq döyüş ərəfəsində Nadirin qoşunu ilə şahın hərbi qüvvələri birləşdi [7, s. 127]. Məlik Mahmudun başçılıq etdiyi əfqanlardan Məşhəd qalasının alınması iki aya qədər davam etdi. Bü müddətdə mühasirədə saxlanılan Məlik Mahmudun qüvvələri ilə Nadirin qoşunları arasında ağır bir döyüş oldu. Əfqanlar məğlub edildikdən sonra yenidən qalaya çəkildilər [7, s. 127-128]. Həmin ilin noyabrında Nadirin başçılığı ilə qoşunlar Məşhəd şəhərini oranı müdafiə edən qüvvələrin xəyanəti nəticəsində əfqanlardan azad etdilər [6, s. 222]. Bu Nadirin ilk genişmiqyaslı müharibə əməliyyatında böyük uğurlarından biri idi.

Şah II Təhmasib tərəfindən “Təhmasibqulu” adı verilmiş Nadir [11, s. 108] bu qələbədən sonra Xorasan vilayəti də daxil olmaqla bir sıra yerlərdə hakimiyyətə qarşı separatçı qüvvələrin məhv ediləsinə nail oldu [6, s. 198-201]. 1729-cu ilin sentyabrında böyük əzmlə apardığı döyüşlərdən sonra Heratda əfqanların idarəçiliyinə son qoydu [7, s. 158-160; 10, s. 45]. Bundan sonra əsas hədəf Səfəvilər dövlətinin o zamankı paytaxtı, 1722-ci ildə əfqanlara verilmiş İsfahan şəhərini əfqan Əşrəfin qoşunlarından təmizləmək oldu. Çox gərgin döyüşlər keçirdikdən sonra 1729-cu ilin noyabrında İsfahan azad edildi və II Təhmasib şah sarayında taxtına əyləşdi [12, s. 326; 7, s. 169]. Qeyd edək ki, 1722-ci ildə İsfahan şəhəri əfqanların üzücü mühasirəsindən sonra Şah Sultan Hüseyn tərəfindən necə sakitliklə təhvil verilmişdisə, Əşrəf də Murcexort döyüşündə məğlub olduqdan sonra İsfahana çəkilmiş, gecə ilə topladığı qənimətlər və adamları ilə şəhərdən səssizcə qaçmışdır. Nadir xan Şiraza çəkilmiş Əşrəfi 1729-cu ilin dekabrında həlledici döyüşdə məğlub etdikdən sonra əfqanlarla mübarizəni tam qələbə ilə başa vurmuşdur.

Göründüyü kimi, Nadir xan Səfəvi torpaqlarının işğaldan azad edilməsinə özünün doğulduğu Xorasan vilayətindən başlamış, oraya hücum edən özbək və türkmənləri geri oturtduqdan sonra, işğal altında olan Məşhəd, Herat, İsfahan və s. yerləri azad etmişdir. Yəni Rusiya və Osmanlı qüvvələrini Səfəvi

torpaqlarından çıxarana qədər bir sıra hərbi döyüşlər həyata keçirmişdir, təcrübə qazandığı bu mübarizələrdən uğurlarla çıxmışdır.

Lakin bu zaman Səfəvi şahı ilə Nadir xan arasında saray əyanları tərəfindən qızışdırılan ixtilaflar dərinləşməkdə idi. Bunun səbəbkarı isə şah və onun qeyri-müstəqil hakimiyyəti idi. Belə ki, II Təhmasib səfəvilərin hakimiyyətinə qarşı olan qüvvələrə və ölkəyə edilən hücumlara qarşı təkbaşına mübarizədə çətinlik çəkdiyindən əvvəlcə köməyindən istifadə etdiyi Astrabad hakimi Fətəli xanın təsirinə düşmüş, 1726-cı ildə onu aradan götürdükdən [3, s. 19; 4, s. 57] sonra isə 1728-ci ildən Nadir xanın himayəsinə sığınmağa məcbur olmuşdu [17, s. 159]. Ətrafının təsiri ilə o, Nadir xanın da nüfuzunu aradan qaldırmağa çalışmaq istəsə də, bu onun özünü çətin vəziyyətə salmış oldu.

Bu zaman Səfəvi torpaqlarının əksər hissəsi Osmanlı dövlətinin işğalı altında olduğundan Nadir xan əfqanlar tərəfindən tutulan bölgələri azad etdikdən sonra osmanlıları tutduqları torpaqlardan çıxarmağa başladı. Əvvəlcə Şah II Təhmasib tərəfindən Osmanlı sarayına diplomatik yolla, elçi göndərilərək türk qoşunlarının Səfəvi torpaqlarından çıxarılması təklif edilsə də, sultan hökumətinin razılaşmaması [10, s. 49; 7, s. 175] bu məsələni dinc yolla həll etməyə imkan vermədi. 1730-cu ilin martında Nadir osmanlıların əlində olan Həmədan üzərinə hücum etdi. Döyüşdən əvvəl oradakı Osmanlı qoşunlarının başçısına məktubla müraciət edən Nadir xan ona Osmanlı hərbi qüvvələrini bu torpaqlardan çıxarmağı təklif etsə də [7, s. 176], müsbət cavab ala bimədi. Ard-arda iki döyüşdə osmanlıları məğlub etdikdən sonra o, 1730-cu ilin iyununda Həmədana daxil oldu [5, s. 84]. Həmədanın osmanlılardan geri qaytarılması xəbəri Sənəndəcdəki Osmanlı qarnizonunu tezliklə oranı tərk etməyə məcbur etdi. Ardınca Nadir Kirmanşaha hərbi qüvvə göndərdi. Göndərdiyi qoşunun Həsən paşa tərəfindən məğlub edilməsindən sonra Nadir xanın özünün hərbi qüvvə ilə gəlməsi xəbərini eşidən Osmanlı qoşunu Kirmanşahdan da çıxdı və Bağdada doğru çəkildi [7, s. 180]. Beləliklə, Nadir Səfəvilər dövlətinin cənub-qərb bölgələrini Osmanlı işğalından azad etdi. Özünün çətin vəziyyətində Osmanlı sultanı III Əhməd Səfəvilər dövlətinə qarşı 1730-cu ilin iyulunda müharibə elan etdi [8, s. 6].

Bundan sonra Nadirin əsas hədəfi Azərbaycan torpaqlarının osmanlılardan geri alınması oldu. Bu istiqamətdə onun hücumunun qarşısını almaq Təbriz valisi və sərəsgəri Teymur paşaya tapşırılmışdı. Teymur paşa Marağa, Ərdəlan, Sulduz ətrafında Osmanlı qüvvələrini cəmləyərək hazırlıq işləri görməyə başlasa da, Miyanduab qalası yaxınlığında Nadirin hücum xəbərini alıb Marağaya doğru geri çəkildi. Bu zaman Osmanlı qoşunlarını təqib edən Nadir onlara ağır zərbə endirdi. Marağada duruş gətirə bilməyən osmanlılar oranı da tərk etdilər [7, s. 181]. Marağadan sonra Nadir Təbrizi osmanlılardan almaq üçün hücumunu davam etdirdi. Hımin vaxt Marağadan Təbrizə çəkilən Teymur paşa yenidən Osmanlı qüvvələrini döyüşə hazırlıq vəziyyətinə gətirdi. Tərəflər arasında ilk döyüş Qavdul məntəqəsində, Cığatay (Zərinrud) cayının kənarında baş tutdu. Çox ağır döyüşdən sonra yenə əvvəlki kimi Nadir qalib gəldi. Yenidən Təbrizə çəkilən Teymur paşa qələbənin mümkünsüz olduğunu görüb şəhəri tərk etmək istəsə də, bu zaman şəhərin Osmanlı hakimi Mustafa paşa Nadirlə yeni döyüşə girmək istədiyini bildirdi. Bu döyüş də osmanlıların

məğlubiyyəti ilə bitdikdən sonra osmanlılar Təbrizi tərk etdilər. Onlar Nadirin quvvələri yetişməzdən əvvəl Sərxabdağ yolu ilə Naxcıvan və İrəvana doğru istiqamət götürdülər [7, s. 188]. 1730-cu il avqustun 12-də Nadir xan Təbrizə daxil oldu. Əfşarlı Bisütün xanı şəhərin hakimi təyin etdi [8, s. 6; 7, s. 182-189].

Təbrizi tutduqdan sonra Nadir xan sultan sarayındakı çəkişmələrdən istifadə edərək Naxçıvan və İrəvanı da osmanlılardan geri almaq istədi. 1730-ci ilin avqustunda bu istiqamətdə hücumu davam etdirmək istədikdə, Xorasanda əfqanların (abdalların) üsyan qaldırdığını eşidərək fikrini dəyişdi. Təbrizdən Məşhədə yollanmalı oldu [8, s. 6]. Çünki, bu vaxt Məşhəddən gələn xəbərə görə əfqanlar Heratda hakimiyyəti ələ keçirmiş, Məşhəd üzərinə hücuma hazırlaşmaqda idilər [10, s. 51].

Göründüyü kimi, Nadir xan Azərbaycan törpaqlarının müəyyən hissəsini Osmanlı hərbi qüvvələrindən geri qaytardıqdan sonra Naxçıvan bölgəsini də işğaldan azad etmək istəmişdi. Bu Osmanlı ilə sərhəddə hərbi-strateji əhəmiyyət daşıyan bölgələrin alınması baxımından əhəmiyyətli idi. Həmin işi Şah II Təhmasib davam etdirmək istəsə də, nail ola bilməmişdi. Belə ki, Nadir xan Xorasandakı ixtişaşlarla bağlı getdikdən sonra Şah II Təhmasib aralarındakı ziddiyyəti öz xeyrinə həll etmək və hərbi gücünü göstərmək üçün 18 min nəfərlik hərbi qüvvə ilə Təbrizə qoşun çəkdi [7, s. 207]. Məqsədi İrəvan və Naxçıvanı Osmanlı qüvvələrindən azad etmək idi. Qeyd edək ki, bu arada sultan sarayında baş verən çəkişmələr nəticəsində 1730-cu il oktyabrın əvvəllərində sultan III Əhmədin hakimiyyətini sultan I Mahmud əvəz etdi. Noyabrda İsfahandan Həmədana yola düşən şah bura çatdıqdan sonra sultan I Mahmudu təbrik etmək üçün Vəli Məhəmməd xanı elçi kimi İstanbula göndərdi. Bununla yanaşı İrəvan və Naxçıvanı osmanlılardan azad etmək üçün Təbrizə gəldi. Burada Nadir xanın şəhər hakimi təyin etdiyi Bisütün xan Əfşarlının yerinə öz adamı Məhəmmədqulu xan Sədlini təyin etdi və bundan sonra Araz çayını keçərək İrəvan qalası üzərinə hücumu davam etdirdi [10, s. 53]. Şah II Təhmasibin qoşunla irəliləməsi xəbərini alandan sonra Ordubad və Naxcıvandakı Osmanlı qarnizonu döyüşə girmədən İrəvana cəkildi. İrəvandakı Osmanlı quvvələrinə yenicə sərəsgər təyin edilmiş Əli paşa Həkimoğlu və Teymur paşa rəhbərlik edirdilər [7, s. 207]. Naxçıvan bölgəsindəki Osmanlı qoşunlarının müqavimət göstərmədən İrəvan qalasına çəkilməsi göstərir ki, bu zaman bölgə müvəqqəti də olsa, şah qoşunlarının nəzarətinə düşmüşdü. Buradakı osmanlılar isə İrəvan qalasındakı öz hərbi qüvvələri ilə birləşərək şah qoşunlarına qarşı mübarizəni artırmaq üçün geriyə çəkilmişdi. Bu hücum zamanı şah İrəvana deyil, şimal-şərqə - Üçmiəzzinə yönəldi, burada gözlənilmədən Osmanlı qoşunları ilə qarşılaşsa da, onları məğlubiyyətə uğratdı [5, s. 96] Sonra müdafiə üçün İrəvan qalasına çəkil osmanlıları 18 gün mühasirədə saxladı. Qalanı ala bilməyəcəklərini gördükdən sonra şah qoşunları Təbrizə doğru geri çəkilməyə başladı. Hələ Şah II Təhmasib İrəvan qalasına hücum etmək üçün Araz çayını keçdiyi vaxt bu xəbər sultan hökumətinə çatmış, təbrik üçün göndərilən Səfəvi elçisi Vəli Məhəmməd xan həbs etdirilərək Bozcaadaya sürgün edilmişdi. Şah II Təhmasibin bu aldadıcı hücumuna görə sultan hökuməti Səfəvi dövlətinə qarşı biri İraqi-Əcəm, digəri Azərbaycan olmaqla

iki istiqamətdə qoşunların hərəkət etməsinə qərar verdi. Bağdad valisi sərəsgər Əhməd paşa İsfahan üzərinə yürüşə təyin edildi, Diyarbəkir valisi Həkimoğlu Əli paşa isə sürətlə İrəvandakı qüvvələrə yardım üçün getməsi əmr edildi [10, s. 53-54]. Təbrizə qayıdan Şah II Təhmasib Osmanlı qoşununun bir hissəsinin İrəvandan Təbrizə, digər hissəsinin isə Bağdaddan Kirmanşaha doğru hərəkət etdiyini eşidəndə təşvişə düşərək Zəncan istiqamətində hərəkətini davam etdirdi. Osmanlı qoşunları Əhməd paşanın rəhbərliyi ilə çətinlik çəkmədən Kirmanşahı tutub, buradan Həmadan üzərinə hücum etdilər. Həmədan yaxınlığında Osmanlı və Səfəvi qoşunları arasında baş verən döyüşdə məğlub olan şah çətinliklə aradan çıxa bildi [1, s. 162]. Bu zaman o, İsfahana deyil, Qum şəhərinə getdi [7, s. 208]. Azərbaycan cəbhəsində Həkimoğlu Əli paşa əvvəlcə Marağa, sonra isə Təbrizi tutdu. Beləliklə, 1731-ci ildə Şah II Təhmasib əvvəlki illərdə Nadir tərəfindən Osmanlılardan azad edilmiş Kirmanşah, Həmədan, Marağa, Təbriz və s. Səfəvi torpaqlarını itirdi.

Məğlubiyyətdən sonra şah Bağdaddakı Əhməd paşaya Məhəmməd Bağır adlı elçisini göndərərək sülh bağlamağı təklif etdi. Bu müraciət əsasında aparılan danışıqlardan sonra 1732-ci ilin yanvarında (fevral ayı da göstərilir) Bağdad müqaviləsi bağlandı [14, s. 117]. Müqaviləyə görə Azərbaycan tərəfində Araz çayı, İraq tərəfdə Dərnə və Dərtəng Osmanlı ilə Səfəvi arasında sərhəd oldu. Təbriz, Ərdəlan, Kirmanşah, Həmədan, Hüveyzə və Loristan Səfəvilərdə qaldı, İrəvan, Naxçıvan, Tiflis, Gürcüstanın çox hissəsi, Gəncə, Şirvan və Dağıstan Osmanlılara verildi, Araz çayı iki dövlət arasında sərhəd oldu. Sultan I Mahmud Təbrizin ələ keçirilib sonra səfəvilərdə qalmasına narazılığını bildirsə də, bu müqaviləni qəbul etmiş oldu [10, s. 55]. Ancaq Nadir bu sənədi qəbul etmədiyinə görə o, gerçəkləşə bilmədi [8, s. 6].

Müqavilənin şərtlərindən aydın olur ki, bu zaman Naxçıvan bölgəsi Osmanlı hakimiyyəti altında qaldı. Nadir bölgəni azad etmək fikrində olsa da, tarixi şərait buna icazə vermədi. Şah II Təhmasibin isə buna gücü çatmadı. Hər iki halda Naxçıvan yenə də Arazdan şimaldakı digər Azərbaycan torpaqlarının bir hissəsi kimi osmanlılarda qaldı.

Həmin vaxt, yəni 1732-ci ilin yanvarın 21-də Şah II Təhmasib Rusiya dövlətinin işğal etdiyi Səfəvi torpaqları ilə bağlı onunla Rəşt müqaviləsini də imzaladı. Bu muqaviləyə əsasən, Rusiya Səfidrud cayı boyunca tutduğu əraziləri muqavilənin imzalanmasından bir ay sonra, Gilan, Astara ətrafındakı əraziləri muqavilənin təsdiqindən beş ay sonra Səfəvilər dövlətinə qaytarmalı idi. Kür cayından şimalda Rusiyanın nəzarəti altında olan ərazilər isə osmanlıların işğal etdikləri ərazilər geri alınacağı təqdirdə qaytarılmalı idi [17, s. 184; 7, s. 209]. Lakin Nadir nəinki bu müqavilələri qəbul etmədi, hətta şahın bu addımına qarşı çıxdı. Təcili olaraq Osmanlı dövlətinin Məşhəddə olan nümayəndəsi Məhəmməd Ağanı İstanbula yolladı. Sultan hökumətinə xəbər göndərdi ki, Şah II Təhmasib ilə bağladığı müqaviləni qəbul etmir. Osmanlılara tezliklə 1723-1725-ci illərdə tutduqları Səfəvi torpaqlarını, yəni vaxtilə Səfəvi dövləti sərhədləri daxilində olan və hazırda Osmanlı nəzarəti altına duşmuş butun əraziləri tərk etməyi bəyan etdi. Əks təqdirdə müharibəni davam etdirəcəyini bildirdi. Bu tələblər həm Osmanlı sarayına, həm də Bağdad hakimi Əhməd paşaya catdırıldı [14, s. 118; 2, s. 209-210].

Nadir İsfahana göndərdiyi nümayəndə ilə Bağdad müqaviləsilə razılaşmadığını şaha bildirərək, onu tabeliyində olan hərbi qüvvələrlə Qum və ya Tehran şəhərinə gəlməyi, orada qoşunları birləşdirərək Osmanlı üzərinə getməyi təklif etdi. Amma şah Nadirin ona qarşı olduğunu bildiyindən getmədi. Nadir Tehrana çatdığında şahın gəlmədiyini görüb əsas işi İsfahandan başlamaq üçün ora getdi [14, s. 118].

Şah II Təhmasib Tehranda Nadirin qoşunları ilə birləşməyə razılıq vermədikdən sonra Osmanlılarla Nadirə qarşı əməkdaşlıq etmək istədi. Bunun üçün o, Bağdad hakimi Əhməd paşa ilə danışıqlar apararaq onunla əməkdaşlıq edilməsinə cəhd göstərdi [5, s. 106; 7, s. 211]. O, osmanlılarla bağladığı Bağdad müqaviləsilə təsbit edilən şərtlər çərçivəsində sülhün davam etməsini israr etdi [10, s. 57]. Buna görə də şahı bu məsələlərdən çəkindirmək, belə əməkdaşlığın hakimiyyətə zidd olduğunu bildirmək və onun fəaliyyətinə son qoymaq ucun Nadir Tehrandan İsfahana yollanmaq qərarına gəldi və 1732-ci il avqustun sonlarında İsfahana catdı [7, s. 211].

Nadir xanın İsfahana gəlişini eşidən şah taxtdan salınacağndan qorxub paytaxtdan 12 fərsəng aralı Sərçeşmə kəndinə çəkilmişdi. Ancaq Nadir şəhərə yaxınlaşdığı zaman şaha xəbər göndərərək gəlişinin əsl məqsədinin gizlətmiş, məqsədinin şaha olan xidmətini davam etdirmək və Səfəvi torpaqlarını işğaldan azad etmək olduğunu bildirmişdir. Bu xəbər şahı saraya dönməyə vadar etmişdi [14, s. 118]. Şahın yenidən etimadını qazanan Nadir xan onu taxdan endirmək üçün əvvəldən təşkil etdiyi bir məclisdə onu həbs etdirərək ömrünün qalan hissəsini İmam Rza türbəsində keçirmək üçün Məşhədə göndərdi [14, s. 118]. Şahın taxtdan salınmasından sonra Nadir xan dövlət adamları ilə apardığı müzakirələrdən sonra 1732-ci iln sentyabrında II Təhmasibin azyaşlı oğlunu III Abbas adı ilə şah elan etmiş, özünü də şahın Vəkili-dövlə və ya Naibi-səltənəsi elan edərək dövlətin idarə edilməsini ələ almışdır. Balaca şahı böyüməsi üçün Qəzvinə göndərmişdir [9, s. 147-148; 12, s. 331-332].

Bundan sonra Nadiri işğal altında olan Səfəvi torpaqlarını Rusiya və Osmanlı qoşunlarından azad etmək gözləyirdi. Əvvəlcə o, Luristan, Kirmanşah və s. bölgələrdə baş qaldıran daxili qarşıdurmaları yatırmaq üçün hərəkətə keçdi. Öncə bəxtiyariləri, ardınca lurları tabe etdi. Luristanda asayişi bərpa etdikdən sonra Kirmanşaha gələn Nadir burada hətta yerli əhalinin rəğbəti ilə qarşılandı [7, s. 219; 10, s. 59-60]. 1732-ci ilin dekabrında Kirmanşahdan Bağdaddakı Osmanlı qoşunları üzərinə hücum edərkən, eyni vaxtda Uğurlu xanın başçılığı ilə bir hərbi qüvvəni Cənubi Qafqaza Gəncə üzərinə göndərmişdir [10, s. 119].

Nadir xan Kirmanşahda olarkən ora yaxın dağlıq ərazidəki Zəhab qalasında Əhməd paşa Baclanın rəhbərliyi ilə yerləşən Osmanlı hərbi qüvvələrinin onunla döyüşə hazırlıq xəbərini eşitdi. O, qoşunu ilə gecə vaxtı uca, qarla örtülmüş dağlıq ərazini cəsarətlə aşaraq onun qoşununa yolu üzərində digər istiqamətdən qəfil hücum etmək istəyən 20 minlik Osmanlı hərbi qüvvələrini məğlub etdi. Hətta qaçmaq istəyən Əhməd paşa Baclan özü belə əsir düşdü [7, s. 219-220].

Bundan sonra Nadir xan əsas hədəfi olan Bağdad üzərinə hücumunu davam etdirdi. O, hərbi-strateji baxımdan əhəmiyyətli mövqedə yerləşən Bağdad qalasının osmanlılar tərəfindən möhkəm müdafiə olunduğunu bilirdi. Əvvəlcə Kərkük istiqamətində yürüş edərək köhnə Bağdadı osmanlılardan aldı. Çətinliklə əldə edilən bu qələbə Nadirə Bağdad qalasını mühasirəyə almağı qazandırdı [7, s. 227]. 1733-cü il qışın sonlarında Nadır Bağdadı mühasirəyə aldı. Çətin vəziyyətə düşən qalanın müdafiəsinin qoşun başçısı Əhməd paşa öz hökuməti ilə razılaşaraq 1733-cü ilin fevralında Nadir xanla hərbi əməliyyatların müvəqqəti dayandırılması ilə bağlı müqavilə imzalasa da [15, s. 106; 2, s. 157], bu məsələni həll etmədi. Yayın ortalarına qədər sürən bu mübarizədə məqsəd mühasirədəkiləri çətin vəziyyətə salmaqla müqaviməti qırmaq idi. Lakin Osmanlı hökuməti tərəfindən Topal Osman paşanın başçılığı altında Bağdadın mühasirəsindəkilərə köməyə göndərilən 100 min nəfərlik (bəzi mənbələrdə daha çox [10, s. 62]) ordu aylarla davam edən bu məsələni osmanlıların xeyrinə həll etdi. 19 iyul 1733-cü ildə Duçum adlı yerdə Bağdad uğrunda mübarizədə ilk dəfə olaraq Nadir xeyli hərbi qüvvə və döyüş təchizatını itirərək, ağır məğlubiyyətə uğradı, mühasirəni də dayandırıb Həmədan və Kirmanşah istiqamətində geriyə çəkildi [9, s. 158; 14, s. 120]. Belə bir uğursuzluq Nadir xanı ruhdan salmadı. O, inadla öz başladığı işi davam etdirməyi həyata keçirdi. Yəni geriyə çəkildikdən sonra osmanlılarla yeni döyuşə hazırlaşmağa başladı [2, s. 238]. İki ay müddətinə öz ordusunu yenidən döyüşə tam hazırlıq vəziyyətinə gətirən Nadir 1733-cü ilin sentyabrında Bağdad istiqamətində hücuma başladı. Bunun üçün oktyabrın 2-də Kirmanşaha gəldi. Buradan Zəhhab yaxınlığında, Diyalə çayının kənarında mövqe tutmuş Polad paşanın rəhbərlik etdiyi Osmanlı qoşunu üzərinə hərəkət etdi. İlk olaraq Polad paşanın hərbi qüvvələrini məğlub etdikdən sonra, noyabr ayında Kərkük yaxınlığında Topal Osman paşanın ordusunu məğlub etdi. Bu döyüşdə osmanlıların 20 min hərbi qüvvəsi öldürüldü və ya əsir götürüldü, silah-sursatı ələ keçirildi. Topal Osman paşanın özü də öldürüldü [10, s. 68; 14, s. 121]. Bununla da, Nadir uğursuz Bağdad döyüşünün cavabını vermiş oldu.

Əldə edilmiş qələbədən sonra Nadir Şəhrizur, Kərkük, Dərnə, Hillə, Nəcəf və Kərbəla şəhərlərini ələ keçirərək yenidən Bağdadı mühasirəyə aldı. Osmanlı tərəfdən kömək edilməyəcəyini bilən və öz qüvvələri ilə müdafiəni davam etdirə bilməyəcəyini görən Bağdad hakimi Əhməd paşa Nadirlə razılaşmaq yolunu seçdi. Bir fikrə görə bu zaman qalanın müdafiə hissəsinin rəhbəri Əhməd paşa Nadirlə danışıqlar aparmaq üçün nümayəndə göndərdi [14, s. 121], digər araşdırmaya görə Nadir qarşı tərəfə nümayəndə göndərdi [2, s. 159]. Amma hər halda Osmanlı hökümətinin icazəsi olmadan Əhməd paşa Nadir xanla 1733-cü il dekabr ayının 19-da sülh razılaşması əldə etdi. Bu razılaşmada Bağdad qalası osmanlıların əlində qalsa da, Nadirin əsas tələbi öz əksini tapırdı. Belə ki, birincisi, Osmanlı sarayı son 10 ildə ələ keçirdiyi torpaqları geri qaytarmalı və 1639-cu ildə imzalanmış Qəsri-Şirin müqaviləsində göstərilən sərhəd xətti bərpa edilməli idi. İkincisi, döyuşlərin gedişində əsir götürülmüş döyüşçülər və ələ kecirilmiş artilleriya geri qaytarılmalı idi. Nəhayət üçüncüsü, Osmanlı nəzarəti altında olan ərazilərdəki müqəddəs yerlərə ziyarətə gedən Səfəvi əhalisinə müəyyən güzəştlər edilməli idi. Əhməd paşa Os-

manlı sarayı tərəfindən bu sənədin qəbul edilməsi üçün iki ay vaxt istədi [7, s. 251]. Müqavilənin şərtlərinə uyğun olaraq Əhməd paşa İrəvan, Gəncə, Tiflis və Şirvan valilərinə bu yerləri osmanlıların tərk etməsi ilə bağlı məktub göndərdi [10, s. 68]. Bu razılaşmadan sonra Nadir qoşun toplamaq üçün Fars vilayətinə göndərdiyi Məhəmməd xan Bəllucun orada qaldırdığı qiyamı yatırmaq üçün Şiraza getdi. Səfəvilər dövlətinin cənub-şərqində Məhəmməd xan Bəllucun başçılığı ilə Şirazdan Fars körfəzi və Xuzistana qədər genişlənən bu üsyanda Şirazı ələ keçirdikdən sonra bəxtiyarilər Şah II Təhmasibi ölkənin qanuni hökmdarı elan edərək, İsfahan üzərinə hücuma hazırlaşırdılar. Lakin Şiraz yaxınlığında Şulestan düzündə Nadir qoşunları ilə baş vermiş döyüşdə Məhəmməd xan Bəlluc məğlub olduqdan sonra qaçmağa imkan tapsa da, sonradan o, tutularaq İsfahana gətirildi, kor edilərək zindana atıldı [10, s. 70; 14, s. 122].

Bu üsyanı yatırdıqdan sonra Nadir 1734-cü ilin Novruzunu Şirazda qarşıladı və bir az sonra İsfahana gəldi. Burada o, Əhməd paşa ilə bağladığı müqavilənin nəticəsini, yəni Osmanlı tərəfinin razılaşmaya münasibətini gözləyirdi. Bu zaman o, Topal Osman paşa ilə müharibədə əsir götürdüyü ordu naibi Əbdülkərim əfəndi ilə İstanbula həm Topal Osman paşanın cənazəsini [7, s. 256], həm də vəzir Əli paşaya müqavilənin təsdiqi ilə bağlı məktub göndərdi. Məktubda özünün də türk olduğunu və hər iki tərəf arasında qohumluq əlaqələrinin olduğunu bildirən Nadir barışıq müqaviləsinin sultan tərəfindən qəbul edilməsini təklif edirdi [13, s. 60; 10, s. 69].

Əbdülkərim əfəndinin Osmanlı sarayından gətirdiyi məktubda Nadirə danışıqları davam etdirməsi üçün öz nümayəndəsini Diyarbəkrə, Abdulla paşanın yanına göndərməsi bildirilirdi. Əslində Osmanlı tərəfinin məqsədinin danışıqları uzatmaq və vaxt qazanmaq olduğunu Nadir bilirdi. Bununla belə, Nadir sülh danışıqlarının aparılması üçün Əbdülkərim əfəndi ilə birlikdə öz numayəndəsini Abdulla paşanın yanına göndərdi. O, Abdulla paşaya xəbər göndərdi ki, Araz cayının şimalında olan əraziləri geri qaytarmaq istəyir. Əks təqdirdə, qonaq qəbul etməyə hazır olsun [7, s. 256]. Qeyd edilir ki, bu danışıqlarda Əbdülkərim əfəndi Araz çayının sağ sahilindəki torpaqların Nadirə qaytarılması şərtilə Osmanlı dövlətinin Əhməd paşaşanın bağladığı müqaviləyə razı olduğunu bildirmişdi [10, s. 70]. Ona görə də Nadir Arazdan şimaldakı torpaqların da qaytarılmasını tələb edirdi.

Bu zaman Nadir xan Qafqazdakı Səfəvi torpaqlarını geri qaytarmaq üçün Osmanlı dövləti ilə yanaşı Rusiya ilə də mübarizə aparırdı. Osmanlı ilə danışıqlar aparılan zaman Rusiya da öz nümayəndəsi S.Qolitsini 1734-cü ilin mayında İsfahana göndərmişdi. S.Qolitsin Nadirə Osmanlılara qarşı Rusiya-Səfəvi ittifaqı təklif etdi. Nadir isə Rusiyanın ordu ilə ona kömək göstərməsi və Xəzərsahili əyalətlərin, xüsusilə Bakı və Dərbəndin qaytarılması tələbi ilə çıxış etsə də, Rusiya tərəfi Osmanlı imperiyasına qarşı qətiyyətli hərəkət edəcəyi təqdirdə bu tələbləri qəbul edəcəyini bildirdi [2, s. 160]. Əslində Rusiya elə 1732-ci ildə Səfəvilərlə Rusiya arasında bağlanmış Rəşt muqaviləsinin şərtlərini əsas tutaraq İrəvan, Tiflis, Gəncə, Şirvan vilayətləri Osmanlı qoşunlarından azad edildikdən sonra Bakı və Dərbəndin də Nadirin nəzarəti al-

tına veriləcəyini bildirirdi [7, s. 257]. Bununla Rusiya diplomatiyası Nadiri Osmanlı qoşunlarını Qafqazdan çıxarmaq üçün müharibəyə başlamağa sövq edirdi. Osmanlı imperiyası Qafqazdakı mövqelərini dəyişmək istəmirdi. Nadir isə diplomatik yolla Səfəvi torpaqlarını Osmanlı və Rusiya işğalından azad etmək istəyirdi. Danışıqlar yolunun heç bir nəticə vermədiyini görən Nadir xan Azərbaycan torpaqlarını geri qaytarmaq üçün hərbi yolu seçdi. Yürüşə başlamazdan əvvəl Nadir Bağdad üzərinə hücum etməyi planlaşdırsa da, sonra fikrini dəyişdi və Qafqaz istiqamətində davam etdi. Səbəbi Osmanlı tərəfi qoşunların əsas ağırlığını cənub istiqamətində toplandığı üçün şimaldan başlamağın əlverişli olması idi [10, s. 71]. 1734-cü ilin avqustun əvvəlində Nadir Ərdəbilə gəldi və burada Abdulla paşadan danışıqların 2 illiyə təxirə salınması ilə bağlı məktub aldı [5, s.142-143]. Təbii ki, bu cavab Nadiri qane etmirdi. O, belə cavab alacağını gözlədiyindən düzgün olaraq hücum əmrini seçmişdi.

Bu hücumda Nadir xanın ilk hədəfi Şirvan bölgəsi oldu. Bu da təsadüfi deyildi. Birincisi, Nadir Rusiyanın Şamaxını keçmiş Gürcü çarı Vaxtanqın əli ilə Osmanlı dövlətindən qoparması xəbərini aldığından daha tez bu məsələni həll etmək istəyirdi. İkincisi, Rusiya ilə Osmanlı arasında olan Şamaxının tutulması ilə Nadirin yaxınlaşması rusların Bakı və Dərbənddən çıxmasını tezləşdirə bilərdi. Üçüncüsü, Nadir Şirvanı boşaltmaq xəbərini aparan Səfəvi elçisini öldürən Şirvan hakimi Surxay xanı cəzalandırmaq istəyirdi [5, s. 143; 7, s. 258].

1734-cü il avqustun 10-da Nadirin qoşunları Kür çayı sahilinə yetişdi. Bu zaman Surxay xan Şamaxını tərk edib dağlara çəkildi [2, s. 161; 7, s. 258]. Burada qeyd etmək yerinə düşər ki, bəzi tədqiqatçılar Surxay xanın müqavimət göstərdiyini yazırlar [7, s. 258-259; 10, s. 71]. Hətta Butkov yanlış olaraq həmin hadisələrdə Şamaxının 2 ay mühasirədə saxlanıldığını, Surxay xanın orada öldürüldüyünü yazmışdır [16, s. 125-126]. Amma bu hücum zamanı Şirvana daxil olan Səfəvi qoşunları 1734-cü il avqustun sonunda Şamaxını tutdular. Nadir Şirvan hakimi vəzifəsinə Məhəmmədqulu xan Səidlini təyin etdi və gələcəkdə buranın tabeçilikdən boyun qaçırmasının qarşısını almaq üçün Şamaxı qalasının divarlarını sökdürüb şəhər əhalisini Ağsu çayı sahilində salınmış yeni şəhərə köçürdü [2 s. 161].

Şirvan azad edildikdən sonra 1734-cü il sentyabrın 15-də Nadir 12 min nəfərlik qoşunla Dağıstan istiqamətində hücumu davam etdirdi [5, s. 145]. Çünki Şamaxının alınmasından sonra Surxay xanın hələ də Nadirə qarşı hücum etmək planlarının xəbərləri gəlib çatırdı. Ona görə də Şamaxıdan sonra Nadir Surxay xanı tamamilə zərərsizləşdirmək üçün onun əsas iqamətgahı olan Kumık qalasını ələ keçirdi. Bundan sonra Surxay xan Qəbələ ətrafında Nadir qoşunlarının bir hissəsinə rəhbərlik edən Təhmasibqulu xana məğlub olub Avarıstana çəkildi [5, s. 145; 7, s. 261]. Bununla Şirvana şimaldan gələn hücumları dayandırmış Nadir yenidən Azərbaycana döndü.

Növbəti hədəf Gəncənin osmanlılardan azad edilməsi idi. 1734-cü il oktyabrın 22-də Nadir Qəbələdən çıxıb Ərəş istiqamətində Kür çayını keçərək Gəncəyə yaxınlaşdı. Onun gəlişini bilən osmanlılar əvvəlcədən qalada möhkəmlənmişdilər. Nadirin təslim olmaq haqqında məktubuna cavab olaraq bildirdilər ki, bu məsələ sultan sarayından asılıdır. Gəncənin alınması Nadir

qoşunları üçün çox çətinlik törətdi. Dəfələrlə edilən hücumlar böyük itkilərə səbəb olsa da, nəticə vermədi. Lağım atılması, bürclərdən birinin dağıdılması, qala divarları qarşısında süni torpaq səddi ucaldılması, rus hərbi istehkam mühəndislərinin köməyi, Gəncə çayının qala divarlarının bünövrəsinə axıdılması və s. bir çox hərbi taktikalar işə yaramadı [7, s. 263-268]. Uzun sürən bu mühasirə zamanı çar Rusiyası Xəzərsahili vilayətləri qaytarmaqla bağlı müqavilə bağlamağa razı olduğunu bildirdi. 1735-ci il martın 10-da Gəncə yaxınlığında düşərgədə Nadir tərəfindən Səfəvilər dövləti ilə Rusiya arasında müqavilə imzalandı. Gəncə müqaviləsi ilə Rusiya bütün Xəzərsahili vilayətləri qaytarmaqla, Dağıstan hakimləri üzərində Səfəvi hakimiyyətini də tanımış olurdu. Müqavilədən sonra bu yerlərin verilməsi ilə yanaşı Rusiya eyni zamanda Nadirdən Osmanlı dövlətinin Cənubi Qafqazda möhkəmlənməsinə imkan verməyəcəyi barədə də zəmanət alırdı [2, s.163; 7, s. 269]. Bununla da Nadir Rusiyadan itirilmiş torpaqların alınması məsələsini həll etmiş oldu.

Bu arada uzun sürən mühasirə məsələsini həll etmək üçün Nadir osmanlı sultanı tərəfindən Abdulla paşanın başçılığı ilə Gəncə qalasındakılara kömək üçün göndərilən və Qars qalasında yerləşən, amma nədənsə köməyə çatmağa cürət etməyən çoxsaylı osmanlı qüvvələrinə qarşı hərəkət etdi. Çünki mühasirədəki Osmanlı hərbi rəhbərliyi bildirirdi ki, əgər Nadir Abdulla paşanı məğlub edə bilsə, onlar şəhəri tərk edəcəklər [7, s. 270]. 1735-ci il mayın əvvəllərində Nadir Babaxanın rəhbərliyi ilə 12 min nəfərlik hərbi qüvvəni Gəncə qalasının mühasirəsi üçün saxlayıb Qars qalasına doğru hücum etdi [14, s. 124]. Qeyd edilir ki, bu zaman o, Gəncə ətrafındakı qüvvələrdən başqa Şirvana, Ağsuya və Naxçıvan ətrafına da hərbi qüvvələr yerləşdirdikdən sonra hücum planını davam etdirdi [7, s. 271]. Mayın 24-də Nadir Qars qalasına 1 saatlıq məsafədə düşərgə saldı. Burada Abdulla paşanın Van valisi Teymur paşanın başçılığı ilə göngərdiyi 30 minlik osmanlı qoşunu ilə döyüşdə qalib gəldi. Sonra Qars qalasını mühasirəyə aldı və burada da mühasirədəkiləri asanlıqla məğlub edə bilməyəcəyini görəndə Abdulla paşanı qaladan çıxarmaq üçün qoşununa geri İrəvan qalası üzərinə hücum etmək əmri verdi. Əslində əsas məqsəd Abdulla paşanı qaladan çıxarmaq idi ki, buna da nail oldu [10, s. 73-74]. Hələ Nadirin qoşunları Qars qalasından çəkiləndə Osmanlı Teymur paşa öz hərbi qüvvələri ilə onları təqib etməyə başlamışdır. Lakin Teymur paşa ağır məğlubiyyətdən sonra canını qurtarıb Qars qalasına qayıtmış və bundan sonra Abdulla paşa qalanı tərk edib Nadirin arxasınca hücum etmək əmri vermişdi [7, s. 272]. 1735-ci il iyun ayının 18-də İrəvan yaxınlığında iki fərsəng məsafədə tərəflər bir-birinə qarşı mövqe tutdular. Gərgin keçən döyüşdə hərbi qüvvələrinin say üstünlüyünə və qələbə çalacağına tam əmin olan Abdulla paşa ağır məğlubiyyətə uğradıldı. Osmanlı tarixində Arpaçay döyüşü adlandırılan bu qarşılaşmada Osmanlı ordusu sərəsgəri Abdulla paşa və Diyarbəkir valisi Sarı Mustafa paşa öldürüldü, xeyli hərbi təchizat Nadir qoşunlarının əlinə keçdi [14, s. 124-125]. Bu döyüşdən sonra Nadir Gəncə, İrəvan və Tiflis qalalarını azad etməyi qarşısına məqsəd qoydu. Tez bir zamanda bu qalaların boşaldılması üçün o, yenidən Qars qalasına hücum edib mühasirəyə aldı. Bir aylıq mühasirədən sonra razılaşma belə oldu ki, Gəncə,

İrəvan və Tiflis qalalarından Osmanlı qoşunları çıxarılsın və Nadir bu mühasirəni dayandırsın [7, s. 277]. Osmanlılar 1735-ci il iyulun 9-da Gəncəni, avqustun 12-də Tiflisi, oktyabrın 3-də İrəvan qalalarını təhvil verdilər [5, s. 153-154].

Bununla Nadir xan 1734-cü ilin avqustunda Şirvanı aldıqdan sonra 1735-ci ilin oktyabrında İrəvanı da azad etməklə Səfəvilər dövlətinin Qafqazdakı torpaqlarını – Araz çayından şimaldakı Şirvan, Çuxur-Səd və Gəncə-Qarabağ bəylərbəyiliklərinin Osmanlı işğalından azad edilməsini başa çatdırdı. Bu zaman digər Azərbaycan bölgələri kimi Naxçıvanda da Osmanlı idarəçiliyinə son qoyuldu. Bölgə ərazisində 1724-cü ildən tətbiq edilmiş Osmanlı üsul-idarəsi ləğv edildi.

Beləliklə, Nadir xan 1724-cü il İstanbul sülh müqaviləsindən sonra Rusiya və Osmanlı dövlətləri tərəfindən işğal edilmiş Səfəvi torpaqlarını azad etdi. Rusiya Cənubi Qafqazda ələ keçirdiyi Xəzərsahili və bəzi vilayətləri, Osmanlı dövləti isə 1639-cu ildə bağlanmış Qəsri-Şirin müqaviləsi ilə təsbit edilmiş əraziləri geri qaytardı. Ancaq bu qalibiyyət artıq Səfəvilər dövlətinin yox, Əfşarlar dövlətinin sərhədlərini təmin etmiş oldu.

## ƏDƏBİYYAT


1. Dadaşova R.İ. Səfəvilərin son dövrü (İngilisdilli tarixşünaslıqda). Bakı: Nurlan, 2003, 439 s.
2. Əlizadə O.T. XVIII əsrin birinci yarısında Osmanlı-Səfəvi münasibətləri. Bakı: Elm, 2009, 208 s.
3. Hüseynov E. Azərbaycan Nadir şah Əfşarın dövründə: Tar.elm.nam. ... avt. Bakı, 2009, 30 s.
4. Hüseyn Əfşar C. Azərbaycan Nadir Əfşar dövləti. Bakı: 2014, 256 s.
5. Lokart L. Nadir şah (rus dilindən tərcümə edən Nəriman Əbdülrəhmanlı). Bakı: Qanun, 2013, 552 s.
6. Mahmudov Y., Şükürov K. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları (1639-1828). 4 cilddə, I c., Bakı: 2009, 512 s.
7. Süleymanov M. Nadir şah. Tehran: 2010, 741 s.
8. Tahirzadə Ə. Nadir şah Əfşar (Tərcümeyi-hal oçerki). Bakı: Çıraq, 2005, 40 s.
9. Ateş A. Osmanlı-İran Siyasi İlişkileri (1720-1747).Ankara: Altın Post Yayınları, 2010, 375 s.
10. Halaçoğlu A. Afşarlı Nadir şah ve döneminde Osmalı-İran mücadeleleri. Doktora tezi. İsparta, 2001, 156 s.
11. Karadeniz Y. İran Tarihi (1700-1925). İstanbul: Selenge Yayın evi, 2012, 576 s.
12. Kütükoğlu B. Şah II. Tahmasb // Vekayi nüvis Makaleler. İstanbul: İstanbul Fetih Cemiyeti Yayınları, 1994, s. 319-332.
13. Şemdanizade Findiklı Süleyman Efendi Mürit-Tevarih I. M. Münir Aktepe. İstanbul: Edebiyat matbaası, 1976, 266 s.

14. Veliyev E. XVIII. yüzyılın ilk yarısında Güney Kafkasya: Osmanlı, Safevi ve Rusya kıskacında. Yüksek lisans tezi. Konya: 2014, 135 s.
15. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку: Элм, 1975, 230 с.
16. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 годь. Часть I, Санкт-Петербургь: 1869, 620 с.
17. Мустафазаде Т.Т. Азербайджан и русское-турецкие отношения в первой трети XVIII в. Баку: 1993, с. 184

## РЕЗЮМЕ

**ИЛЬХАМИ АЛИЕВ**

## ОСВОБОЖДЕНИЕ ЗЕМЕЛЬ АЗЕРБАЙДЖАНА ОТ ОККУПАЦИИ РОССИИ И ОСМАНСКОЙ ИМПЕРИИ НАДИР ХАНОМ И ПРЕКРАШЕНИЕ ОСМАНСКОГО ВЛАДЫЧЕСТВА В НАХЧЫВАНЕ

В статье рассматриваются неоценимые заслуги Надир-хана по освобождению земель Сефевидов, оккупированных Россией и Османскими государствами в 20-30-х веках XVIII века. Отмечается, что в результате военно-политической и экономической депривации государства в последние дни правления сефевидов большая часть его земель, включая Кавказ, была захвачена соседними османскими и российскими вооруженными силами. Между тем шах II Тахмасиб (1722-1732), находившийся у власти, видел, что он не может освободить землю, и использовал высокий военный талант Надира для восстановления границ и укрепления своего правления. Но этот план был решен в пользу Надир хана, а не того, что он ожидал.

В результате получаются не только Россия и Османские государства, но и афганцы, туркмены и другие. все земли Сефевидов, оккупированные войсками, в том числе земли на Кавказе, были освобождены в середине 30-х годов XVIII века.

**Ключевые слова:** Османский, Нахчыван, Кавказ, Сефевидское государство, оккупация, политическая ситуация

## SUMMARY

**ILHAMI ALIYEV**

## RELEASE THE AZERBAIJANI LANDS FROM THE OCCUPATION OF RUSSIA AND THE OTTOMAN EMPIRE BY NADIR KHAN AND ENDING THE OTTOMAN REIGN IN NAKHCHIVAN

The article deals with the invaluable services of Nadir Khan in the liberation of the Safavid lands occupied by Russia and Ottoman states in the 20-30$^{th}$ years of the 18$^{th}$ century. It is noted that, during the last years of the Safavid rulers as a result of military-political and economic deprivation of this state, most of its lands, including the Azerbaijani lands, were captured by the neighboring Ottoman and Russian military forces. Meanwhile, Shah II

Tahmasib (1722-1732), who was in power, saw that he could not liberate the land and used Nadirin's high military talent to restore the borders and to strengthen his rule. But this plan was settled in favor of Nadir Khan, not what he expected.

As a result, not only all the Safavid lands occupied by Russia and Ottoman states, but also by Afghans, Turkmens and others, including the Caucasus, were liberated by Nadir Khan to the mid of 30$^{th}$ years of the 18$^{th}$ century.

**Key words:** Ottoman, Nakhchivan, Caucasus, Safavids state, occupation, political situation

*(Akademik Hacı Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*